# Yeni büsatın mübarək, torpağım!

(Əvvəli 1-ci səhifədə).

**görülür!**

**Xalqımızın qeyri-maddi-mədəni irs nümunələrindən biri də Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti sayəsində UNESCO-nun siyahısına salınan Novruz bayramıdır.**

Artıq Ağalı neçənci dəfədir ki, baharın gəlişini "köhnə sakinləri" ilə qarşılayır.

*Bayram tonqalları qalamaqla, Novruz plovu və yağlı fətir bişirməklə, qədim ənənələrimizə yeni həyat verib yaşatmaqla!*

* * *

Abadlıq yoldan başlanır - demişlər.

Qarabağda və Şərqi Zəngəzurda möhtəşəm yol çəkilişi işləri sürətlə davam edir, bütün yaşayış məntəqələrinə müasir yollar salınır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" uğurla həyata keçirilir.

Belə ki, 2022-2026-cı illər ərzində ümumi uzunluğu 2.264,5 km təşkil edən 20 avtomobil yolu çəkiləcək.

Kəlbəcərdə beş, Laçında iki yerdə tikilən kiçik su-elektrik stansiyalarında görülən işlər başa çatmaq üzrədir.

Şuşada içməli su probleminin birdəfəlik həlli məqsədilə zəruri işlər görülür, şəbəkə yenidən, daha geniş şəkildə qurulur.

Prezidentin tapşırığına əsasən, Ağdam, Füzuli, Tərtər və Xocavənd rayonlarında pilot layihələr əsasında 15999 fərdi ev və mənzil tikintisi də davam etməkdədir.

Görüləcək işlərin həcmi və miqyası o qədər geniş və əhatəlidir ki, saymaqla qurtarmaz.

Məqsəd isə doğma torpağa əbədi qayıdan insanların rahat yaşayışını, əmək və istirahətini müasir tələblər səviyyəsində qurmaqdır.

* * *

* Otuz ildə ən böyük həsrətimiz işğal altındakı torpaqlarla bağlı olub! * Otuz ildə ən böyük istəyimiz doğma yurd-yuvaya qayıtmaq olub! * Otuz ildə əziz bayramlarda ən ülvi duamız "Gələn bayramı Qarabağda keçirək" niyyəti olub!

* Otuz ildə ən səmimi arzumuz "növbəti süfrəmizi Qarabağda açaq" olub!

* Onların hamısı arzu, istək, niyyət və dua idi!

**Onları reallığa çevirən, arzu, istək və niyyətimizi gerçək edən isə Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!**

**Eşq olsun Qarabağın xilaskarına!**

**Eşq olsun Azərbaycan tarixinin ən böyük simasına çevrilən Müzəffər Ali Baş Komandanımıza!**

Məhz onun müdrikliyi, uzaqgörənliyi, qətiyyət və qəhrəmanlığı sayəsində bu gün biz hamımız vüqarla, fəxrlə, ürəkdolusu və ucadan "Qarabağ Azərbaycandır!" deyirik.

Çox yaşa, İlham Əliyev!

**"Azərbaycan"**

# 9 yeni şəhər, 300-dən çox kənd və qəsəbə

Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına Qarabağ və Şərqi Zəngəzurda nadir və misli görünməmiş yenidənqurma modeli tətbiq edir. "2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq. Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misli görünməmiş bir yenidənqurma modelidir". Bu möhtəşəm yenidənqurma işlərini Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına, yeni heç kimdən maddi yardım almadan həyata keçirir. Bunu şərtləndirən amil isə iqtisadi müstəqillikdir. Prezident İlham Əliyevin tapşırıqları əsasında Qarabağ və Şərqi Zəngəzurun "yaşıl inkişaf" konsepsiyası üzərində bərpası, "ağıllı kənd", "ağıllı şəhər"lərin yaradılması ümumilikdə Azərbaycanın iqtisadi qüdrətini dünyaya nümayiş etdirir. 30 ildə daşı daş üstündə qoymayan ermənilər də şahidlik edirlər ki, İlham Əliyev bu torpaqlarda möcüzələr yaradır. İşğaldan azad olunmuş torpaqlarda 11 su-elektrik stansiyası inşa edilib. Ümumi uzunluğu 2241 kilometr təşkil edən 19 avtomobil yolunun layihələndirilməsi və tikintisi işləri, Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar işlərin yerinə yetirilməsi davam etdirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parklarında ümumilikdə 18 sənaye müəssisəsi qeydiyyata alınıb. Kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatı qeydiyyatdan keçib. Son iki ildə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına ümumilikdə 6,5 milyard manat vəsait yönəldilib. Göründüyü kimi, Qarabağı 44 günə "dəmir yumruq"la düşməndən təmizləyən Ali Baş Komandan indi dəmir iradə ilə 30 il ərzində viran qoyulan yurd yerlərimizi yenidən qurur, keçmiş məcburi köçkünlərin Qarabağ və Şərqi Zəngəzura qaytarılması üçün kompleks tədbirlər görür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən mədəni və dini abidələrimiz bərpa olunur, bir çoxu yenidən tikilir. Erməni işğalından azad etdiyimiz ərazilərə dövlətimiz öz gücü, öz vəsaiti və doğru planları ilə yeni həyat gətirir.

# Qəbələdə Novruz şənliyi keçirilib





Qəbələdə Novruz bayramı münasibətilə ümumrayon şənliyi keçirilib. Şənlikdə idarə, müəssisə və təşkilatların kollektivləri, ağsaqqallar, rayon ictimaiyyəti və şəhərimizin qonaqları iştirak edib. Ululuq və ağsaqqallıq rəmzi sayılan “Dədə Qorqud”, yazın müjdəçisi olan “Bahar qız” mərasimdə qəbələliləri təbrik edərək xalqımıza yeni ildə bol ruzi-bərəkət və əmin-amanlıq arzulayıb. Qədim ənənələrimizin canlandırıldığı teatrlaşdırılmış Novruz şənliyində Dədə Qorqud bayram tonqalını yandırmaqla bu şad gündə el-obanı birliyə, həmrəyliyə dəvət edib. Təşkil olunmuş sərgidə rayonun xalq sənətkarları tərəfindən hazırlanan əl işləri, dekorativ tətbiqi-sənət və rəsm nümunələri, eləcə də bayram şirniyyatları və Novruz xonçaları nümayiş olunub. Bayram mərasimində sərgilənən çoxəsrlik etnoqrafik milli-mənəvi mədəniyyət irsini, qədim milli adət-ənənələrimizi özündə əks etdirən folklor qruplarının ifası və milli musiqi nömrələri tədbir iştirakçılarının böyük marağına səbəb olub. Həmçinin tədbirdə yeniyetmə və gənc idmançılar müxtəlif idman növləri üzrə hərəkətlər nümayiş etdiriblər. Novruz atributları ilə bəzədilən parkda keçirilən bayram tədbiri rayonun mədəniyyət işçilərinin hazırladıqları maraqlı konsert proqramı ilə davam edib. Novruzun əsas personajları olan Kosa və Keçəlin bir-birindən maraqlı çıxışları tamaşaçılarda xoş ovqat yaradıb.

# YAP Qəbələ Rayon Təşkilatı tərəfindən Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub



17 mart 2023-cü il tarixdə YAP Qəbələ rayon təşkilatı tərəfindən gənc partiya fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub. Əvvəlcə gənclər ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad etmişlər. Heydər Əliyev Mərkəzində davam edən tədbirdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Sonda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

# Ümumrayon iməciliyi keçirilmişdir



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi çərçivəsində Qəbələdə ümumrayon iməcliyi keçirilmişdir.